# Ömrümün qürurlu anları



Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Humay Milli Mükafatı" laureatı, Türk dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının fəxri professoru, şair Xuraman Muradovanın Daşkənddə "Özbəkistanım - sən də mənim Vətənim" adlı şeirlər kitabının özbək türkcəsində təqdimat mərasimi keçirilib.

21-26 may tarixlərində qardaş ölkədə kitabının imza günlərini keçirən xanım şairə səfər təəssüratlarını "Ədəbiyyat qəzeti"nin redaksiyası ilə bölüşüb:

22 may 2024-cü ildə qardaş Özbəkistana səfərimin ilk günü - özbək türkcəsində işıq üzü görən kitabımın təqdimat mərasimi unudulmaz, xoş anlarla yaddaşıma yazıldı. Səfərimin ilk günündən Azərbaycanın Özbəkistanda fövqəladə və səlahiyyətli səfiri, cənab Hüseyn Quliyevin böyük diqqəti və səmimi çıxışı məni olduqca sevindirdi. Özbəkistan Respublikasının Beynəlxalq Ədəbiyyat, Mədəniyyət və Sosial Elmlər Akademiyasının Fəxri Akademiki adına layiq görülməyim isə aldığım fəxri adlar içərisində həyatımda xüsusi bir yer tutdu.



Mənim üçün böyük fəxrdir ki, türk dünyasının ehtişamlı elm ocaqlarından sayılan Akademiyanın fəxri akademiki adına layiq görüldüm. Bundan daha öncə Azərbaycanda, Türkiyə Elmlər Akademiyasında fəxri adlara layiq görülmüşdüm. Amma Vətənim kimi doğma Özbəkistanımda, şəninə şeirlər həsr etdiyim Turan elində bu mükafata layiq görülmək mənim üçün olduqca böyük qürur, böyük fəxarətdir.

Növbəti gün Daşkənddə Türk dünyasının dəyərli ziyalıları, ədəbiyyat adamları ilə ədəbiyyatlarımıza, mədəniyyətlərimizə dair geniş söhbətlərimiz oldu.

Mahmud Kaşğariyə məxsus olan kitabələrin, əsli Türkiyədə saxlanan kitabələrin maketini orijinal bir mozaika ilə hazırlamışdılar. Həmin görüş zamanı, sanki ədəbiyyat dünyasına maraqlı səyahət elədik.

Mayın 24-də isə Azərbaycanımızın Müstəqillik gününə həsr olunmuş möhtəşəm mərasim keçirildi. Özbəkistanda yaşayan həmvətənlərimizin, qardaş türk dövlətlərinin səfirlərinin, mədəniyyət müşavirlərinin, türk dünyasından olan dəyərli ziyalıların qatıldığı tədbir bayram ab-havasında keçdi.

Həmin tədbirdə cənab səfirimiz Hüseyn Quliyevin mənə söz verərək kürsüyə dəvət etməsi məni çox qürurlandırdı.

O tədbirdə mən müzəffər xalqın övladı kimi, qürurla çıxış etdim və bu qüruru bizə yaşadan Müzəffər Ali baş Komandanımız başda olmaqla, müzəffər ordumuza, müzəffər xalqımıza dualarımı ünvanladım.

Həmin görüşdə iştirak edən türk dövlətlərinin səfirlərinin, ictimai xadimlərin, mədəniyyət müşavirlərinin, ordu generallarının və tədbirə qatılan hər kəsin çıxışımı rəğbətlə, hərarətli alqışlarla qarşılaması məni olduqca sevindirdi.

**Bu möhtəşəm səfər və unudulmaz görüşlər üçün ölkəmizi Özbəkistanda layiqincə təmsil edən cənab Hüseyn Quliyevə, qardaş ölkədə ulu öndər Heydər Əliyev adını yaşadan Mədəniyyət Mərkəzinin əməkdaşlarına dəyər verdikləri üçün, göstərdikləri böyük diqqət, qayğı və ehtiram üçün ürəkdən "çox sağ olun!" deyirəm. Bu möhtəşəm görüşün keçirilməsində zəhməti keçən bütün gözəl insanlara, Əlişir Nəvai adına Özbəkistan Dövlət Universitetinin bütün kollektivinə, kitabımı özbək türkcəsinə çevirən dəyərli bacım, professor Gülbahar xanım Aşurovaya xüsusi təşəkkürlərimi bildirirəm. Allah Özbəkistanımızı, qardaş xalqlarımızı, birliyimizi, bütövlüyümüzü qorusun! Allah Türk dünyamızı qorusun!**